# Kukla Teatrında yeni mövsüm açıldı

## *“Melisa” tamaşasının premyerası uğurla keçdi*

**Sevinc Nuruqızının eyni adlı nağılının motivləri əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru – “Oyuq” teatr studiyasının rəhbəri Səidə Haqverdiyeva “XQ” yə açıqlamasında səhnə əsərini belə xarakterizə edib: “Tamaşa üzərində 6 aydan çoxdur ki, məşq edirdik. Səhnə əsəri 6 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulub. Melisa öz rahat və rəngli dünyasından çıxmış, həyatın hər üzünü görmüş gəlincik kukladır. Yaşadığı çətinliklərə baxmayaraq, ümidini itirmir. Tamaşa vasitəsilə uşaqlara istənilən çətinliyə düşsələr belə, ümidlərini itirməməyi, hər vəziyyətdən çıxış yolu tapmağı bacarmağı aşılayırıq”.**





Birhissəli tamaşada fərqli texnikalı kuklalardan, işıq həlli və tərtibatdan istifadə olunub. Səhnə işinin quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Röya Hüseynovadır. Tamaşada musiqi seçimi ideyanı tamamlayır, mövzunun açılmasını asanlaşdırır.

Səidə xanım yeni mövsümdə oynanılacaq digər tamaşalar haqqında da məlumat verdi: “Rejissor Anar Məmmədovun quruluşunda “Ələddin” tamaşasının nümayişi gözlənilir. Həmçinin, teatrda məşqləri gedən növbəti səhnə işi – böyüklər üçün nəzərdə tutulan və əsasən də festivallarda nümayiş üçün hazırlanan “İtki” adlı kukla tamaşasıdır. Uzun illər səhnədə oynanılan “Cik-cik” tamaşasını da yeni quruluşda təqdim etməyi düşünürük”.

Teatrın direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə ümumi yaradıcılıq atmosferini dəyərləndirdi: “Bu gün uşaqlar, ələlxüsus da, kiçik yaş qrupu üçün bədii nümunələr tapmaq və kukla estetikasında səhnəyə tamaşa qoymaq elə də asan deyil. Çünki o yaş qrupu daha çox animasiya dilini – özü də valideynlərinin çox vaxt başları qarışsın deyə, onlara verdikləri “ağıllı” telefonlardakı effektli oyun və animasiyaları gördükləri üçün – daha asan qavrayırlar. Amma bütün bunlara rəğmən, biz bacardığımız kimi işimizin öhdəsindən gəlməyə çalışırıq. Bu baxımdan əminəm ki, “Melisa” tamaşası balaca teatrsevərlərimizin xoşuna gəldi. Fürsətdən istifadə edib, uşaq yazıçı və dramaturqlarından belə əsərlər yazıb bizə göndərmələrini xahiş edirəm”.

Aktrisa Ülviyyə Əliyeva “Melisa” tamaşasının ilk məşqlərinə başlayanda çox kövrəldiyini dedi: “Tamaşa o qədər təsirli idi ki, öz rolumu oynayanda belə çox kədərlənmişdim. Səhnə əsərində 4 obraz canlandırıram. Bunların hər biri mənə doğmadır. Tamaşa oynanıldıqca daha da gözəl olacaq. Hər kəsi tamaşaya baxmağa dəvət edirəm”.

Premyeradan sonra uşaqların üzlərindəki razılıq hissini görməmək, duymamaq mümkün deyildi. Məktəbli dostumuz Firuz İbrahimov teatrın açılışı üçün həddsiz darıxdığını və tamaşanı çox bəyəndiyini dedi. İradə Allahverdiyeva da Kukla Teatrını sevdiyini, tez-tez tamaşalara gəldiyini və zövq aldığını bildirdi.

Qeyd edək ki, Kukla Teatrının kollektivi Ümummilli lider Heydər Əliyevin 100, Peşəkar Azərbaycan Teatrının 150 illik yubileyi münasibətilə sentyabrın sonlarında “Melisa” tamaşası ilə Gəncə şəhərinə qastrol səfərinə yollanacaq.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Xalq qəzeti .- 2023.- 21 sentyabr.- S.10.